**UOT 745/749**

**Sevinc İslamova**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət**
**Universitetinin doktorantı**
**E-mail**: sevka-75@mail.ru

# RƏSSAM NAZİM BƏYKİŞİYEVİN YARADICILIĞININ FORMALAŞMASI AZƏRBAYCAN SƏHNƏQRAFIYASININ İNKİŞAFI KONTEKSTİNDƏ

**Xülasə:** Məqalə rəssam Azərbaycan səhnəqrafiyasının inkişafı kontekstində Nazim Bəykişiyevin yaradıcılığınn formalaşması məsələsinə həsr olunub. Müəllif qeyd edir ki, teatr sinkretik sənət növüdür. Bundan çıxış edərək qənaət olunur ki, sinkretikliyin tərkib hissəsi olan səhnəqrafiya tamaşanın uğurunun başlıca göstəricilərindən biridir. Azərbaycan teatrı da bu prosesin tərkib hissəsi olmaqla, öz fəaliyyəində sinkretliyini rəssamlrın müxtəlif nəsillərinn timsalında daima nümayiş etdirmişdir. Azərbaycan Respublikasının Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nazim Bəykişiyevin (1948) yaradıcılığı timsalında müəllif əldə etdiyi gənaətləri sübuta yetirmiş olur.

**Aşar sözlər:** rəssam, rəngkarlıq, səhnə, tərtibat, səhnəqrafiya, teatr.

İncəsənət tarixi kimi yaranma qaynaqları çox-çox uzaqlara gedib çıxan teatrın elə yaranışında sinkretik olduğu özünü göstərmişdir. Onun cəlbediciliyinin yalnız rejissor, aktyor, bəstəkar və rəssam təxəyyülünün üzvi bütövlüyünün əldə olunması ilə əldə olunduğu zamanın axarında artıq təsdiq olunmuş faktdır. Hələ xalq tamaşalarında özünü büruzə verən bu sinkretikliyin işartıdan yüksək bədiiliyə uzanan yolunda bu vəhdətin əldə olunmasına öz töhfələrini verən müxtəlif sənət növləri təmsilçilərinin yaradıcı estetikasının bütün mənalarda yenilənməsindən, özündə ənənə və müasirlik problemini həll etməsinin necəliyindən keçmişdir. Əgər zamanında sinkretikliyin tərkib hissəsi olan səhnəqrafiyanın tamaşanın cəlbedici və təsirli alınmasında rolunun nisbili olduğunu nəzərə alsaq, müasir dövrdə bunsuz hər hansı teatr tamaşasının uğuruna ümid bəsləməyin mənasız olduğunu etiraf etməliyik. Bütün bunlara qədim ənənələr üzərində yaranan və inkişaf edən Azərbaycan professional teatrının 145 ili əhatə edən müasir mərhələsində əmin olmaq mümkündür. Teatrda rəssamın rolunun əhəmiyyəini bu sahənin xiridarları da daima vurğulamaqdadırlar. Bu barədə elə Nazim Bəykişiyevin qənətləri də maraq doğurur: "Teatr rəssamı tamaşanın tərtibatını – dekorasiyasını, aktyorların qrimini və kostyumlarını yradarkən müstəvi və fəzanı nəzərə almaq şərtilə kompozisiyanı, rəngkarlığı, rəsmi mükəmməl bilməli, səhnədə peyzaj, interyer və memarlıq ansamblı yaratmalı, buna görə də perspektivin (mənzərənin uzaqdan görünüşü) qanunlarına yiyələnməlidir, həmçinin də lazım gələrsə, heykəltəraş kimi çıxış etməlidir"(8,4).

Bu fikrin davamı olaraq demək lazımdır ki, çoxəsrlik tarixini Qədim yunan, Roma, Orta əsrlər, Dirçəliş dövrü, XVII-XIX və XX-XXI əsrlər teatrının mövcudluğu ilə təsdiqləyən səhnə sənəti zamanın axarında özünün müxtəlif estetikaya malik olmasını

həm də səhnəqrafiyası ilə sərgiləmişdir. Təbii ki, Azərbaycan teatrı da bu prosesin tərkib hissəsi olmaqla, öz fəaliyyəində sinkretliyini rəssamlrın müxtəlif nəsillərinn timsalında daima nümayiş etdirmişdir. Elə buna Azərbaycan Respublikasının Xalq rəssamı, Dövlət mükafatı laureatı, professor Nazim Bəykişiyevin (1948) az qala yarım əsri əhatə edən yaradıcılığının timsalında da buna əmin olmaq mümkündür.

Əvvəlcə Bakıda məşhur "Əzimzadə məktəbi"ndə (1965-1969), sonra isə Moskvada Dövlət Teatr Sənəti İnstitutunda (1970-1975) ixtisas təhsili alan gənc rəssamın teatr fəaliyyəti – onun müasir səhnəqrafiyanın tələb və vəzifələrinə fərdi münasibətinin əksi olan bədii tərtibatlarda ondan əvvəl ərsəyə gətirilənlərə yaradıcı münasibət duyulmaqdadır. Onun taleyinə sovet məkanında səhnə ilə bağlı ən nüfuzlu təhsil ocağında oxumağın yazılması, bunun ölkənin ən məşhur teatrlarının bir araya gəldiyi məkanda gerçəkləşməsi və üstəlik elə sağlığında bu sahənin korifeyi hesab olunan Sergey Obraztsovdan (1901-1992) dərs alması gənc rəssamın professionallığının kamilləşməsi üçün çox etibarlı mənbə-qaynaq idi. Paytaxt teatrları ilə canlı ünsiyyət, orada fəaliyyət göstərən məşhur rejissor, aktyor, bəstəkar və rəssamlarla tanışlıq böyük ümidlərlə Bakıdan Moskvaya üz tutan Nazim Bəykişiyev üçün arzularını gerçəkləşdirməyə əlavə mənəvi dəstək idi.

Hər dəfə məşhur "Taqanka teatrı"na üz tutub səhnəqrafiyada özünə mənəvi ulduz saydığı D.L.Borovski-Brodskinin səhnəni özünəməxsus tərzdə canlandıran tərtibatlarına tamaşa edəndə, görkəmli səhnə tərtibatçısının növbəti uğurlu premyeradan sonra alqışlara tənzim etməsini müşahidə etməsini şahidlik edəndə, hərdən xəyalən özünü onun yerində təsəvvür edərdi. Böyük səhnəqrafiya ustasının "Nə etməli? (N.Çernışevski), "Burada üfüqlər sakitdir" (B.Vasilyev), "Hamlet" (V.Şekspir), "Azadıq heykəlinin dərisi altında" (Y.Yevtuşenko), "Yoldaş, sən inan" (A.Puşkin), "Taxta atlar" (F.Abramov), "Kəmərləri bərkidin" (Q.Baklanov və Y.Lyubimov) və s. tamaşalara verdiyi cəlbedici və təsirli bədii tərtibat tamaşanın özünəməxsus arxitektonikasının əldə olunması ilə həyata keçirildiyindən, sözün əsl mənasında unudulmaz idi. Bu yerdə deyək ki, həmin tamaşaların rejissoru zamanında sovet teatrının islahatçısı kimi tanınan Yuri Lyubimov idi. Bununla belə onların birgə fəaliyyətinin nəticəsi olan tamaşalara gedəndə, teatrsevərlər fəxrlə "Bu gün D.L.Borovski-Brodskiyə baxmağa gedirəm!" deməkdən qürur hissi keçirərdilər.

Nazim Bəykişiyev dəst-xəttinin sonradan formalaşan estetikasının özünəməxsus tutum almasında Böyük Teatrın rəssamı Valeri Liliental səhnəqrafiyasının ilhamverici rolu da danılmazdır. Səhnənin canlandırılmasında rəngin gücünə inanan, tərtibatı təşkil edən ayrı-ayrı ayrıntıların çəkilməsində qeyri-adi dərəcədə dəqiqlik nümayiş etdirən V.Lilientalın ovqatyaradıcılığa meylliliyi heç şübhəsiz, həm də onların zəngin "rəng çalarları məcmusu"nu tamaşaçı hissiyyatını duyğulandırmağa yönəldə bilməsindən qaynaqlanırdı.

Bir sözlə, institutda görkəmli aktyor və rejissor kimi ad çıxaran və həm də rəssamlığa duyulası meyli olan Sergey Obraztsov (o, zamanında məşhur rus rəssamı A.Arxipovdan dərs almışdı) ikinci kursun sonlarında istedadlı azərbaycanlı gəncin bədxahlarının təhrikiylə rəngkarlığa sevgisinə, əslində isə gecə-gündüz çalışmasına nədənsə qısqancıqla reaksiya verir. Odur ki, məsələnin əsl məğzindən sona qədər xəbərdar olmayan rejissor ona süçim etməyi, başqa sözlə desək, rəngkarlıqdan uzaqlaşmamağı tövsiyə edir və hətta onun V,İ.Surikov adına Moskva Rəssamlıq

İnstitutuna köçürülməsini də boynuna götürdüyünü söyləyir. Lakin həmin an müəlliminin Nazimin qarşısında səsləndirdiyi "Ya teatr, ya da rəngkarlıq!" tələbi gənc rəssam üçün sözün əsl mənasında "Domokl qılıncı"na çevrilir. Odur ki, teatr rəssamlığının sirlərinə yiyələnməyi rəngkarlıqla əlaqələndirməyi qarşısına yaradıcı vəzifə kimi qoyan Nazim bütün yay tətilini tamamilə teatra həsr edir. Tətildən sonra Moskvaya qayıdan gənc rəssam özü ilə gətirdiyi onlarla teatr eskizi ilə müəlliminin ram etməyi bacarır və S.Obraztsov (I.1,3) onun təhsilini onun rəhbərliyi altında davam etdirməyə razı olur...

Yeri gəlmişkən qeyd edək ki, N,Bəykişiyevin ali təhsil illəri daima ona aşılanan nəzəri biliklərin həm də təcrübədə sınanması ilə yadda qalan olmuşdur. Belə ki, bütün il boyu "S.Obraztsovun teatrı"nı özləri üçün yaradıcı emalatxanaya çevirən tələbələr, semestr imtahanlarından sonra Moskvadan uzaq-yaxın şəhərlərdə fəaliyyət göstərən müxtəlif teatrlarda hər hansı bir tamaşaya bədii tərtibat verməklə dərs ilini yekunlaşdırardılar.

Bu mənada onun üçüncü kursdan başlayaraq Vladiqafqaz (Şimali Osetiya) şəhərindəki Kukla teatrında keçdiyi təcrübənin yaradıcılığına müsbət təsir göstərdiyini qeyd etmək lazımdır. Elə beş illik təhsilin yekunu olan diplom işini də gənc rəssam həmin teatrda həyata keçirdi. Onun tərtibat verdiyi İ.Karnauxov və L.Brauseviçin "Durna-zənglər" tamaşasının (I.1.2) uğuru bu gün də Şimali Osetiyada xatırlanmaqdadır. Bu tərtibatın zamanında RSFSR-də keçirilən teatr festivalında III mükafata layiq görülməsi də gənc rəssamın səhnəqrafiyada nümayiş etdirdiyi yüksək sənətkarlığın təsdii kimi qəbul olunur.

Qəribə də olsa təhsilsonrası S.Obraztsovun tələbəsinə - Moskva təhsilli teatr rəssamının Bakı teatrlarında fəaliyyət göstərməsinə imkan verilmir. Odur ki, o, məcburiyyət qarşısında qalıb onun gəlişinə həmişə şad olacaq məkana - Vladiqafqaza qayıtmağa qərar verir. Orada sevinclə qarşılanan rəssam burada həm Rus Dram Teatrında, həm də Kukla teatrında quruluşçu rəssam kimi çalışmağa başlayır.

Gənc rəssamın 1975-1977-ci illəri əhatə edən həmin fəaliyyəti bu gün - duyulası zaman kəsiyindən müstəqil yaradıcılığının ilk mərhələsi kimi duyulası maraq kəsb edir. Belə ki, öz-özlüyündə səhnəqrafiyası və tərtibat estetikası bir-birindən fərqlənən bu yaradıcı kollektivlərdəki fəaliyyəti, onun yəqin ki, başlanğıc sayıla biləcək axtarışlarının sənətkar "mən"inin yönəldilməsində təkanverici rol oynamışdır. Yaradıcılığının iki illik "Vladiqafqaz mərhələsi"ndə ictimaiyyət arasında həm də "Sabi" adı ilə tanınan Kukla teatrında ondan çox tamaşaya tərtibat verən N.Bəykişiyev "S.Obraztsov teatrı" bədii tərtibat ənənələrinin estetikasına özünəməxsus çalarlar əlavə etməklə, 1940-cı ildən fəaliyyət göstərən bu teatrın tamaşaçı sırasının duyulası sayda artmasını şərtləndirmişdir.

Həmin dövrdə Vladiqafqaz kollektivinin kukla teatrlarının Ümumittifaq və Ümumrusiya festivallarında laureat adını qazanmasında azərbaycanlı rəssamın da böyük yaradıcı əməyi olmuşdur, desək, yanılmarıq. Kollektivin rəssamın vətənə dönüşündən sonra - 1980ci ildə respublika Dövlət mükafatına layiq görülməsi də zamanında onun teatrda qoyub getdiyi yaddaqalan izin də təsiri az olmamışdı. Teatrın uğurlu fəaliyyətini təsdiqləyəcək siyahıda zamanında onun səhnəqrafiya həllini verdiyi İ.Karnauxov və L.Brauseviçin "Durna-zənglər" tamaşasının yer alması da bunun təsdiqi sayıla bilər.

Nazim Bəykişiyev Vladiqafqaz Rus Dram Teatrında isə üç tamaşaya bədii tərtibat vermişdir. Yeri gəlmişkən deyək ki, 1935-ci ildən fəaliyyət göstərən bu teatrın onun gəlişinə qədər müxtəlif rəssamlar tərəfindən formalaşmış səhnəqrafiya estetikası vardı.

Qənaətimizcə, onun cəmisi iki illik fəaliyyətindən sonra tədqiqatçıların bu teatrın səhnəqrafiyasının özünəməxsusluğunun formalaşmasında Y.Fyodorov, T.Qaqloyev, M.Kelexsayev, G.Yaqubov, M.Çoçiyev, Z.Dzaxova, A.Tuayeva və Y.Dodianova ilə yanaşı Nazim Bəykişiyevin adını xüsusi qeyd etmələri azərbaycanlı rəssamın həmin kollektivin tarixində möhkəm yer aldığından xəbər verir. Onun teatrın səhnəsində tamaşaya qoyulan Aleksandr Vampilovun "Keçən il Çulimskidə" dramına verdiyi bədii tərtibatın adı kollektivin mövcudluğu dövründə səhnəqrafiya sahəsində əldə etdiyi ən böyük uğurları sırasında çəkilir. Bu da səbəbsiz deyil.

Öncə deyək ki, yetmişinci illərdə dövrünün tanınmış dramaturqlarından hesab olunan A.Vampilovun vəfatından sonra SSRİ teatrlarının çoxunun repertuarında yer alan bu pyesin dramaturji materialının sorağı Vladiqafqaza da gəlib çatmışdı. Başqa sözlə desək, onun tamaşaya hazırlanması sözün əsl mənasında sosial sifarişə çevrilmişdi. Odur ki, bu pyesin yerli Rus Dram Teatrında hazırlanması barəsində yayılan xəbərlər (şək.I.1,4) teatrsevərlər tərəfindən rəğbətlə qarşılandı.

Artıq bir çox mərkəzi teatrlarda səhnə həyatı yaşamış bu əsərə özünəməxsus bədii yozum vermək tamaşanın rejissoru Aleksandr Xuqayevin başlıca istəyi idi. Tamaşanın səhnəqrafiyası həvalə edilmiş Nazim də maraqlı süjetə malik olan pyesin mənəvi-psixoloji yükünü tamaşaçıya inandırıcılıqla çatdıra biləcək tərtibat vermək arzusunda idi. Dramaturq təxəyyülü ilə yaradılan Çulimsk şəhərini tamaşaçı görməsə də. əsasən əsərin əsas qəhrəmanı olan gənc Valentinanın işlədiyi çayxanada və ona bitişik hasarlanmış güllüyün fonunda baş verən təzadlı hadisələr qızın müstəntiq Şamanovla biganəlikdən ciddiliyə qədər dəyişən ünsiyyətlərinin necəliyinə, onların münasibətlərinə qızın atasının müdaxiləsinə şahidlik etməklə, əyalətdə yaşanan ailə-məişət dramının müxtəlif qatlarını görür. Bir an belə səngiməyən bu lirik-psixoloji tutumlu yaşantıların əyaniləşməsinə "bədii dayaq" verən rəssam, səhnəqrfiyanı çox sadə görüntü və ayrıntılar vasitəsilə həll etməklə, cərəyan edən hadisələrin diqqətçəkənliyini əldə etmişdir. Qabarıqlığı o qədər də duyulmayan gümüşü-boz rəng çalarlarından "boylanan" dekorasiyalar da "susqunluğuna" görə önündə baş verənlərin cəlbediciliynin vurğulanmasına hesablanmışdır...

Gənc rəssamın tamaşanın uğur qazanmasında böyük rolu olan bu müasir ruhlu səhnəqrafiyası teatrda onun mövqeyini kifayət qədər möhkəmlətsə də, o, bu sahədə qazandıqlarını Azərbaycanda əyaniləşdirmək - gerçəkləşdimək istəyirdi. Yəqin ki, bu niyyətdə bir-neçə il onun vətənə qayıdışına biganəlik göstərənlərə öz fərdi yaradıcı potensialını göstərmək istəyi də vardı. Bu mənada Nazimin 1978-ci ildə baş tutan qayıdışının əvvəlki taleyini yaşamamasının kökündə yəqin ki, onun Şimali Osetiya teatrında əldə etdiklərindən Azərbaycandakı mədəniyyət məmurlarının xəbərdar olması da dururdu. Beləliklə, 1978-ci ilin sonlarında onun Sumqayıt Dövlət Dram Teatrında quruluşçu-rəssam kimi fəaliyyətə başlaması gerçəkləşir..

Nazim Bəykişiyev 1975-1978-ci illərdə bilavasitə Vladiqafqaz Dövlət Dram Teatrında fəaliyyət göstərsə də, Azərbaycandakı həmkarları onun Şimali Qafqazda reallaşan uğurlarından kifayət qədər xəbərdar idilər. Bunu onlar həm dövrü mətbuatdan, həm də onun Bakıda təşkil olunan müxtəlif məzmunlu sərgilərdə iştirakından bilirdilər. Rəssamın yaradıcılığının "Vladiqafqaz mərhələsi"ndə maraqlı bir tendensiyanı izləmək mümkündür. Bu da onun bilavasitə quruluş vermədiyi tamaşalara tərtibat eskizləri hazırlaması ilə bağlıdır. Bunun maraqlı fakt olmasını vurğulamaqla yanaşı. demək lazımdır ki, öz-özlüyündə rəssamın tərtibatçısı olmadığı tamaşaya bədii münasibə

bildirməsi ilk növbədə onun teatra olan sevgisindən qaynaqlanır. Bu hal onun yaradıcılıq bioqrafiyasında bir-neçə dəfə təkrarlanmışdır. Nazim Bəykşiyevin belə səhnəqrafiya nümunələrindən birincisi M.Qorkinin "Meşşanlar" pyesi ilə bağlıdır.

Elə 1976-cı ildə onun yenidən Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının səhnəyə qoyulmasını gerçəkləşdirən məşhur rejissor Mehdi Məmmədov ənənəsinə sadiq qalıb qarşısına əvvəlkilərdən fərqli tamaşa hazırlamaq kimi çətin yaradıcılıq vəzifəsi qoymuşdu. Tamaşanın bədii tərtibatını da oğlu Elçin Məmmədova həvalə etmişdi. O dövrün mətbuatında tamaşanın arzulanan səviyyədə alınmadığına ehyamlar duyulsa da, müstəqillik dövrü teatrşünaslrının yazılrında həmin tənqidin məqsədli olduğu da dilə gətirilmişdir. Bu mübahisəni ədalətli həll edəcək hal isə, həmin 1976-cı ildə M.Məmmədovun elə həmin teatrın səhnəsində "Dəli yığıncağı"nı (C.Məmmədquluzadə) teatr məkanında sənət hadisəsinə çevrilə biləcək tutumda tamaşaya qoyması oldu. Yeri gəlmişkən deyək ki, yeddi il sonra N.Bəykişiyev ata-oğulun yaradıcısı olduğu "İblis"(H.Cavid) faciəsinin səhnələşdirilməsində həmmüəllif rəssam kimi iştirak etməklə, onarın hansı yaradıcı potensiala malik olduqlarına yaxından şahidlik etmişdi.

Onun 1976-cı ildə "Meşşanlar"a müraciəti isə bilavasitə özünün bu əsərə özünəməxsus səhnəqrafiya həlli vermək arzusunun ifadəsi idi. Odur ki, bu dekorasiya eskizində (şək.I.1,5) rəssam hansısa rejissorun yozumuna "illüstrasiya"çəkmək əvəzinə, pyesdən aldığı təəssüratı ifadə etmişdi. Burada hər şey pyesdə pərdədən-pərdəyə güclənən dramatizmə müvafiqdir. Vasili Bessemyonovun qələbəlik duyulan mənzilində - ailəsində nəsillərin qarşıdurmasının yaratdığı "mübahisələr yığıncağı"-övladların aldıqları təhsilin onları xoşbəxt etməməsinin acı nəticələri, atanın yetişdirməsi olan və onun qızını sevən inqilab ruhlu maşinist Nilin, ailənin bir uzaq qohumunun, həbsxana nəzarətçisinin dul qadını, eləcə də müğənni və tələbə Şişkinin bir araya gəldiyi məkanda bütün şəhər sakinlərinə xas darıxdırıcı həyat-tərzi keçirməkdədirlər. Məntiqlə bu qədər adamın məskunlaşdığı məkanda meşşan ailəsindəki həyat canlılığı ilə diqqət çəkməli olduğu halda, başlıca niyyətləri yalnız pul qazanmaq olan insanlarda gələcəyə-yaxşılığa doğru heç bir ümid duyulmaqdadır. Müəllifin qənaətincə isə, onlardakı bu ümidsizlik öz gələcəklərinin məsuliyyətindən və dəyişikliklərdən qorxmaq hissindən yaranmışdır. Onlara qarşı qoyulan Nil ciddi dəyişikliklər arzusu ilə yaşasa da, hələ ki, ətrafındakıların gerçəkliyə baxışlarını dəyişməkdə gücsüz görünür... Bütün bu ağlı-qaralı dünyanın bir ailənin timsalında görünən təzadlarına bədii görkəm verən Nazim Bəykişiyev, ərsəyə gətirdiyi dekorasiyada bu xaotikliyi ədəbi mətnə müvafiq əks etdirməyə çalışmışdır. Sonralar palitrası bir qədər yığcamlaşacaq rəssamın bu səhnəqrafiya nümunəsində boya əlvanlığına meyllənməsinin kökündə ailədə yaşanan təzadlı durumu bütün çalarları ilə ifadə etmək istyi durur, desək, yanılmarıq. Kompozisiyanın üst-üstə sıralanma prinsipinə əsaslanması, rəng lokallığının fikir aydınlığının dərkinə yönəldilməsi də məqsədli olub, bilavasitə dramaturji materialın zənginliyindən qaynaqlanan gərginliyin ifadəsinə istiqamətləndirilmişdir...

Bir il sonra Nazim Bəykişiyev R.İbrahimbəyovun jurnalda çap olunmuş "Qum üzərində ev" pyesi ilə tanış olur. Bu da onu hələ səhnə təcəssümü tapmamış əsərə dekorasiyalar yaratmağa həvəsləndirir. 1977-ci ildə respublika sərgisində nümayiş olunan bu dekorasiya eskizi (şək.I.1,6) həm adi tamaşaçılar, həm də teatr mütəxəssisləri tərəfindən rəğbətlə qarşılanır. Müəlliflə söhbətimiz zamanı o bildirdi ki, "Rus draması"nın aparıcı aktyorlarından sayılan A.Şarovski dekorasyanı görəndən sonra mənə

"Bunu R.İbrahimbəyov görübmü? sualını vermişdi. Bir müddət sonra həmin pyes Bakıda tamaşaya qoyularkən onun səhnəqrafiyasını həll etməyə bu yöndə artıq müəyyən işlər görmüş N.Bəykişiyev yox, bir moskvalı rəssam dəvət olunmuşdu...

Amma azərbaycanlı rəssamın ərsəyə gətirdiyi dekorasiyada pyesin ümumi fabulasına-fəlsəfi tutumuna müvafiq, onu obrazlı-bədii tutumda əyaniləşdirən məqamlar çox qabarıq idi. Əslində isə görünənlər rəssamın pyesin mətninə, onun alt qatına yaradıcı nüfuzunun nəticəsi idi. əgər pyesin ümumi məzmununu xatırlamalı olsaq, onda deməliyik ki, əslində sadə süjet üzərində qurulmuş pyesdə cəmiyyətimiz üçün səciyyə olan bir hadisəyə şahidlik edirik. Ata-ananın dəniz sahilində bağ evi tikmək-övladlarını, gəlinlərini və nəvələrini istirahət üçün buraya yığmaq ideyası üzərində qurulan süjet, dramaturji materialın sonrakı səhifələrində bir ailə daxilində yaşananların həm də mənəvi-psixoloji problem kimi qəbuluna gətirib çıxarır. Belə ki, valideynlərinin bu xoş niyyətinin arxasında nələrin gizləndiyinin mahiyyətinə varmaq istəməyən iki oğul və qız işləriin çoxluğunu bəhanə edib, yaxalarını kənara çəkirlər. Hadisələri zaman-zaman dramatikləşdirən dramaturq, zamanın axarında ailənin böyük oğlunun ata-ananı başa düşməsi ilə süjeti nikbin sonluğa kökləyir...

1978-ci ildə isə Nazim Bəykişiyev A.Çexovun məşhur əsərərindən sayılan "Qağayı" pyesinə dekorasiyalar işləmişdir. Əvvəlki iki əsərə çəkilən dekorasiyalardan fərqli olaraq "Çayka" ünvanlı səhnəqrafiya nümunələri təkliflə ərsəyə gətirilmişdir. Belə ki, həmin 1978-ci ildə Mahaçqala Dram Teatrı həmin pyesi səhnəyə qoymaq istəyirdi, amma bu istiqamətdə əksər yaradıcı işlər həyata keçirilsə də, son məqamda subyektiv səbəblərdən əsərin tamaşası baş tutmur. Həmin əsərin dekorasiyalarını təşkil edən iki eskizdə Nazim Bəykişiyev yaradıcılığının ən yaxşı nümunələri ilə qarşılaşırıq, desək, həqiqəti söyləmiş olarıq...

Səhnəqrafiyamızın 1970-1980-ci illərə təsadüf edən mənzərəsi bilavasitə N.Bəykişiyevin özünün də yaxından iştirakı ilə yaradıldığından, əslində ərsəyə gətirilənlər o vaxtlar gənc olan və bədii yeniliklərə imza atmaq istəyi ilə yaşayan rəssamların onlara qədər bu sahədə görülən tərtibat işlərinə yaradıcı baxışın və onlardan çıxarılan nəticələrin görüntüsü saymaq olardı.

## Ədəbiyyat:

1. Bəykişiyev N. Kataloq. Bakı,2008. 144 s.
2. Əliyev Z. Rənglərin düşündürmək gücü //"Kaspi" qəzeti,2015, 16 avqust, s.16.
3. Əliyev Z. Zərif boyaların lirik çalarları // "Kaspi" qəzeti,2017,28 noyabr, s.16.
4. Ələsgərli Ç. Nazim Bəykişiyevin yaradıcılığı haqqında düşüncələr *II* "Qobustan", №2, 2004, s. 36-38.

**Севиндж Исламова**

**Формирование творчества Назим Бейкишиева в контексте развития Азербайджанской сценографии**

**Резюме**

Статья посвященна изучению творчества Назима Бейкишиева в контексте развития сценографии Азербайджана. Известно, что театр синкретический вид искусства. Сценография как составная часть спектакля является одним из главных показателей его аншлага. Автор статьи на примере творчества Народного художника Азербайждана, Лаурета государственной премии, профессора Н.Бейкишиева обосновавывает свои доводы.

**Ключевые слова**: художниук, живопись, сцена, оформление, сцена, театр.

**Sevinj Islamova**

**Formation of Nazim Beykishiev's creativity in the context of development Azerbaijani scenography**

**Summary**

The article is devoted to the study of Nazim Beykishiev's creativity in the context of the development of scenography of Azerbaijan. It is known that the theater is a syncretic art form. Scenography as an integral part of the performance is one of the main indicators of its sold-out. The author of the article substantiates his arguments on the example of the people's artist of Azerbaijan, Laurette of the state prize, Professor N. Beykishiev.

**Keywords**: artistry, painting, stage, decoration, stage, theater.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 17.05.2019**
**Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 24.05.2019**
**Məqalənin çapa qəbul olunma tarixi: 24.06.2019**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənətşünaslıq üzrə fəlsəfə doktoru Sevil Kərimova**
**ADMİU-nun Elmi Şurasının 06 iyul 2019-cu il, 09 saylı qərarı ilə çap olunur**